*Uluslararası **T**ürkçe **E**debiyat **K**ültür **E**ğitim Dergisi Sayı: 1/4 2012 s. 227-239, TÜRKİYE*
*International Journal of Turkish Literature Culture Education Volume 1/4 2012 p. 227-239, TURKEY*

# AZƏRBAYCAN MEMARLIĞININ ŞAH ƏSƏRLƏRİNİN DURUMU

**Vefa GULİYEVA***

**Özet**

Azerbaycan toprakları Türk boy ve topluluklarının en eski yerleşim yerlerinden birini oluşturmakta ve üzerinde eşsiz kültür, uygarlık ve mimarlık eserlerini barındırmaktadır.

1920 yılında tarihî Azerbaycan toprakları üzerine kurulan Ermenistan Cumhuriyeti, kendilerini destekleyen Ruslar'ın ve Batılılar'ın da destekleriyle 1990'lı yılların başında Azerbaycan topraklarını işgal etmiştir.

İşgal altındaki Azerbaycan topraklarına (Dağlık Karabağ, Kəlbəcər, Şuşa, Laçın, Cəbrayıl, Qubatlı, Zəngilan, Ağdam, Fizuli...) Ermeniler yerleştirilmiş; bu bölgelerdeki Türk kültürüne, uygarlığına, mimarlığına ait eserlerin önemli bir kısmı tahrip edilmiş; tahrip edilemeyenler ise Ermeni eseri olarak gösterilmiştir.

Bu makalede ana hatlarıyla Azerbaycan mimarlık eserleri hakkında bilgi verildikten sonra Batı Azerbaycan'daki (Ermeniler tarafından işgal edilen topraklardaki) mimarlık eserlerinin durumları dikkatlere sunulmaktadır.

**Anahtar sözcükler:** Azerbaycan, mimarlık eserleri, Ermenistan, işgal.

## AZERBAIJAN ARCHITECTURE'S STATE OF MASTERPIECES

**Abstract**

Azerbaijan lands create one of the oldest settlements of Turkish tribes and community and nestle within unique culture, civilization and architectural works.

In 1920, Republic of Armenia was established on historical Azerbaijan lands occupied Azerbaijan lands the supports of Russians and Westerners in early 1990s'.

Armenians were settled the occupied Azerbaijan lands (Dağlık Karabağ, Kəlbəcər, Şuşa, Laçın, Cəbrayıl, Qubatlı, Zəngilan, AğArmandam, Fizuli...); an important part of the works belonging to Turkish culture, civilization, architecture in these regions were destroyed; works that can't be destroyed, were shown as work of Armanian.

In this article, after giving information about the works of Azerbaijani architecture with generally they were expressed stuations of architectural works in West Azerbaijan (in occupied lands by Armenians).

**Keywords:** Azerbaijan, architectural works, Armenia, occupation.

Azərbaycan xalqı qədim tarixə və zəngin mədəniyyətə malik olan bir xalqdır. Bu tarixî yaddaş əsrlərdən bəri qorunub saxlanmış memarlıq abidələrində yaşayır, xalqın, millətin zəngin mənəviyyatını özündə əks etdirir. Maddi-mədəniyyət abidələri, toponimlər bir millətin müəyyən coğrafi məkanda formalaşmasını təsdiqləyən ən tutarlı sənədlərdir. Məhz buna görə

* Doç. Dr.; Azerbaycan Bilimler Akademisi / Bakü, vefa-quliyeva@rambler.ru.

Ermənilər Azərbaycanın tarixî ərazilərini tutduqda ilk növbədə memarlıq abidələrini dağıdır, yaşayış yerlərinin adlarını dəyişir, erməniləşdirirlər.

XXI-ci əsrdə heç bir millətin ağlına belə gəlməz ki, belə qeyri sivil şəkildə öz qonşusuna qarşı torpaq iddiası irəli sürsün, özü də nahaqdan. Azərbaycanın Ermənistana belə iddia irəli sürməyə daha çox əsası var. Ona görə ki, Ermənistan Respublikasının yerləşdiyi torpaqlar Azərbaycanın tarixî əraziləridir. 1920-ci ildə Azərbaycanın tarixî torpaqları olan İrəvan quberniyası və Zəngəzurun ərazisində rus bolşevik rejimi tərəfindən Ermənistan Sovet Sosialist Respublikası yaradıldı. Ona qədər heç bir tarixî dövrdə Cənubi Qafqazda Erməni dövləti olmayıb. Bu qənaətə Azərbaycan tarixçiləri zəngin mənbəşünaslıq bazasına əsaslanaraq gəlmişlər (epiqrafik sənədlər, orta əsr mənbələri, arxiv sənədləri).

Erməni dövlətinin Qafqazlarda yaradılması Çar Rusiyasının XIX əsrdə burada apardığı xristianlaşdırma siyasətindən irəli gəlirdi. Qafqazı xristianlaşdırmaq mümkün olmadı, ona görə ki burada islam faktoru çox güclü idi. Müsəlman ruhanilərinin Azərbaycanın sosial-siyasi, mədəni həyatında güclü rolu və mövqeyi, möhkəm sosial bazası rus hakimiyyətini, əraziyə sahib olmaq məqsədi ilə, ruhaniləri dövlət inzibati quruluşuna cəlb etməyə və Sünni, Şiə Ruhani idarələri yaratmaq məcburiyyəti qarşısında qoydu. Qafqazlarda xristian erməni dövlətinin yaradılmasının əsas məqsədlərindən biri də Türkiyəni türk dünyasından ayırmaq və Türkiyə ilə türk dünyası arasında bir bufer yaratmaq idi. Ermənilərin XIX əsr ərzində Qafqaza zaman-zaman köçürülməsi və İrəvan quberniyasının, Zəngəzurun, indiki Dağlıq Qarabağın ərazilərində yerləşdirilməsi məhz bu məqsədə xidmət edirdi. Bu gün də Ermənistan Respublikası Qafqazda Rusiyanın forpostu olaraq üzərinə qoyulan missiyanı uğurla yerinə yetirir.

Qərbi Azərbaycan ərazisində çox saylı memarlıq abidələri məscidlər, mədrəsələr, türbələr, orta əsr nekropolları var idi. 1915-ci ilə kimi İrəvan quberniyasında 382 şiə, 9 sünni, Zəngəzur qəzasında 38 şiə məscidi, Şərur-Dərələyəz qəzasında 40 şiə məscidi fəaliyyət göstərib. XX əsrin əvvəllərində İrəvan şəhərində Qədim şəhər məscidi, Came, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzəsəfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib (DTA, f.290, s. 23, iş 15146 a, vər. 91; f. 291, s. 10, iş 6354, vər. 64-67; f. 290, s.1, iş 163, vər. 17-19). Hal-hazırda İrəvan şəhərində bircə Came qalmışdır ki, o da İran səfirliyinin nümayəndələrinə xidmət edir.

Qərbi Azərbaycanda olan zəngin mədəni irsdən keçən əsrin axırlarına kimi bir neçə memarlıq abidəsi qalmışdır. Ermənilər məskunlaşdıqları torpaqlarda ilk növbədə sistemli şəkildə müsəlman abidələrinin dağıdılması, dağıda bilmədiklərini isə erməniləşdirilməsi siyasətini həyata keçirirlər. Məscidlər, orta əsr qəbiristanlıqları yerlə yeksan olunur, alban xristian abidələri mənimsənilir və erməni maddi mədəniyyəti kimi təqdim olunur. Dağlıq Qarabağda olan alban məbədlərinin coğrafiyası dəyişdirilib, Kəlbəcərdə, Laçında, Cəbrayılda,

Qubatlıda, Zəngilanda, Ağdamda, Fizulidə yerləşdirilir və bu ərazilərin Ermənilər tərəfindən haqlı olaraq tutulduğu iddia olunur. Beləliklə, regionun coğrafiyasından naməlum olan avropalıda yanlış təsəvvür yaradılır.

İndiki Ermənistan Respublikasının ərazisi də daxil olmaqla bütün Cənubi Qafqazdakı XIX əsrə qədərki abidələrin erməni tarixi ilə heç bir əlaqəsi yoxdur. Elm aləminə çoxdan bəlli olan bu məsələ ilə əlaqədar tarixə qısa nəzər salmaq yerinə düşərdi.

Ermənilər indiki Ermənistan ərazisini özlərinin tarixî ana vətəni hesab edirlər. Halbuki, bəzi istisnalar nəzərə alınmazsa Ermənilərin Cənubi Qafqaza XIX əsrin I-ci yarısından etibarən kütləvi şəkildə köçürülmələri faktı hamıya məlumdur. Bu köçürülmə hadisələrini əks etdirən tarixî sənədlər arxivlərdə bu günə qədər qorunub saxlanılır. Burada Rusiya ilə İran arasında 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin 15-ci maddəsini, Ermənilərin Azərbaycana köçürülməsinin əsas təşkilatçılarından olan, o zaman İranda rus səfiri, tanınmış yazıçı Qriboyedovun tərtib etdiyi sənədləri yada salmaq kifayətdir. Təkcə 1828-30-cu illərdə Azərbaycanın Yelizavetpol və İrəvan quberniyalarının ərazisinə İrandan 40 mindən artıq, Türkiyədən isə 84 min kibitka (yəni araba) erməni köçürülmüşdür. Qeyri rəsmi köçənlər isə daha çox idi. Qarabağ Erməniləri buraya köçüb gəlmə olduqlarını özləri də etiraf edirlər və bunu mühüm tarixî hadisə kimi qiymətləndirirlər. Belə ki, Qarabağdakı Marağaşen kəndində Ermənilər özləri 1978-ci ildə buraya Cənubi Azərbaycanın Marağa şəhərindən köçüb gəlmələrinin 150 illiyi şərəfinə abidə ucaltmışdılar. Lakin çox təəssüf ki, son hadisələr nəticəsində tarixî həqiqəti əks etdirən həmin abidə Ermənilərin özləri tərəfindən vəhşicəsinə dağıdılmışdır.

1854-56-cı illər Krım müharibəsindən sonra çoxlu sayda erməni, şimali-şərqi Anadolunu tərk edən rus qoşunları ilə birgə, Cənubi Qafqaza gəlmişdir.

1877-78-ci illər, rus-türk müharibəsi gedişində ən azı 25.000 erməni Anadoludan Cənubi Qafqaza köçmüşdür. Eyni zamanda Rusiya tabeçiliyinə keçən Anadolu torpaqlarından 60.000 müsəlman qovulmuşdur.

XIX əsrdə Rusiyada əhalinin siyahıya alma sənədləri, o zaman tərtib olunan rus hərbi topoqrafik xəritələr, bu xəritələrdəki yaşayış yerlərinin adları, həmin ərazidə yaşayanların əsasən azərbaycanlılardan ibarət olduğunu göstərir. O zaman Erməniləri Azərbaycan ərazisinə yerləşdirərkən yerli əhalini aldadaraq deyirdilər ki, onlar buraya qaçqın kimi müvəqqəti yerləşdirilir.

Şavrov yazırdı: «*Zaqafqaziyada yaşayan 1 mln. 300 min. ermənidən 1 mln-dan artığı köklü əhali deyil və bizim tərəfimizdən köçürülənlərdir*».

Eyni zamanda sistemli şəkildə azərbaycanlıların bu ərazilərdən sıxışdırılıb çıxarılması baş verirdi. Veliçko yazırdı: «*Zaqafqaziyanın müsəlman əyalətlərində azərbaycanlıların Türkiyə və İrana köçürülməsi haqqında söhbətlər səngimir. Tədricən köçürülmə baş verir, bu işdə erməni intriqası öz işini görür. Sistemli surətdə rusların vasitəsi ilə müsəlman əhalisi öz yerlərindən didərgin salınır və onların yerini gəlmə Ermənilər tutur*».

Məhz bu yolla Rus imperiyasının müsəlman əyalətlərində Ermənilərin say çoxluğu təmin olunur. Ümumiyyətlə, Ermənilər Azərbaycan torpaqlarına, o cümlədən, Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisinə son 200 il ərzində köçüb gəlmələri faktını inkar edərək bu ərazilərdəki qədim abidələrin məhz onlara məxsus olmalarını heç bir əsas olmadan iddia edirlər. Köçüb gələn Ermənilər bu ərazidəki qədim Azərbaycan - alban mədəniyyətinə məxsus xristian məbədlərini özününküləşdirərək, alban mədəni irsinə sahib çıxaraq, özlərinin Qafqazda ən qədim, sivil, köklü xalq olduqlarını sübut etməyə çalışırlar, bir çox abidələri isə tamamilə məhv etmişlər.

Qarabağdakı və Zəngəzurdakı xristian məbədlərinin albanlara məxsus olmasını orta əsr erməni mənbələri də təsdiq edir. Bir sıra erməni müəllifləri Ermənilərin Azərbaycana gəlmə olduqlarını ört-basdır etməyə, buradakı qədim alban abidələrinin guya onlara məxsus olduğunu sübut etməyə çalışırlar. Bu məsələ ilə bağlı bir misal göstərmək kifayətdir. Şəmkir rayonunun Qarnaker kəndindəki XVI əsr kilsəsinin Ermənilərə aid olduğunu iddia edən erməni müəllifləri bu ərazidəki erməni qəbir üstü yazıları «tədqiq» etmiş və məlum olmuşdur ki, bu yazıların ən qədimi XIX əsrə aiddir. Erməni müəlliflərinin «tədqiqatlarının» məntiqi nəticəsini yalnız belə qiymətləndirmək mümkündür: bu əraziyə Ermənilər son 200 ildə gəlmişlər.

Hələ Roma işğalları dövründən qalmış məbədi qədim erməni məbədi kimi təqdim edən Ermənilər özlərini bu yerlərin köklü sakinləri kimi tanıtmağa çalışırlar. Üç Müəzzin (Eçmiədzin) muzeyində «Nuh peyğəmbərin gəmisinin bir parçası»nı nümayiş etdirən, Nuhun özünün də erməni olmasını iddia edən, XIX əsrə aid ərəb əlifbası ilə yazılmış qəbir üstü yazıları soldan sağa qədim erməni dilində «oxuyan», özgə mədəniyyətinə və torpaqlarına yiyələnən Ermənilərin saxtakarlıqlarının sayı cildlərlə kitablarda toplana bilər. Bu barədə akademik B.B.Piotrovski Yerevanda nəşr olunan «İstoriko-filoloqiçeskiy» jurnalda yazmışdı. Akademiki qəzəbləndirən erməni «alimi» Ayvazyanın Zəngəzurun Zeyvə kəndində aşkar etdiyi ərəb əlifbası ilə yazılmış XIX əsrə aid bir başdaşının ərəbcə yazısını soldan sağa oxuyub e.ə. XIX əsr qədim erməni yazısına aid etməsi olmuşdur. Ayvazyan iddia edirdi ki, bütün dünya əlifbaları bu qədim erməni əlifbasından yaranıb.

Qeyd etmək lazımdır ki, bu məlumatda adları çəkilən xristian abidələrinin heç biri qədim erməni abidəsi deyil və onlar XIX əsrin II yarısı XX əsrin əvvəllərində

ermənniləşdirilmişdir. Bu abidələrin heç biri azərbaycanlılar tərəfindən məqsədyönlü şəkildə dağıdılmamışdır. Əksinə, Azərbaycan Respublikası ərazisindəki abidələr, o cümlədən, xristian abidələri qorunur və bərpa edilir. Məsələn, Qax rayonundakı xristian kilsələri vaxtı-vaxtında təmir və bərpa edilir. Şəki rayonunun Kiş kəndindəki qədim alban kilsəsi Azərbaycan və Norvec mütəxəssislərinin birgə iştirakı ilə tədqiq və bərpa edilmişdir və s. XIX əsrdə Azərbaycana köçürülən Ermənilər və ruslar tərəfindən inşa edilən kilsələr də dövlət tərəfindən qorunur.

Erməni nümayəndələrinin yaydıqları məlumatda göstərilən Culfa (Cuqa) erməni qəbiristanlığı isə heç də onların iddia etdikləri kimi orta əsrlərə aid deyildir, onlar dağıdılmayıb və Culfa heç bir zaman erməni şəhəri olmayıb. Orta əsrlər dövründə Culfa Azərbaycanın beynəlxalq əhəmiyyətli böyük ticarət mərkəzlərindən biri olmuşdur. Şərq ölkələrini Qərbi Avropa ilə birləşdirən Böyük İpək yolunun bir qolu məhz Culfa şəhərindən keçmişdir. Buradakı ticarətdə erməni tacirləri fəal iştirak etmiş, onların burada ticarət koloniyaları mövcud olmuşdur. Eyni sözləri bir sıra Yaxın Şərq ölkələrindən, Qenuya, Amsterdam, Venesiya kimi Qərbi Avropa şəhərlərindən gəlmiş tacirlər haqqında da söyləmək mümkündür. Culfadakı erməni qəbiristanlığı isə əsasən XIX əsrin II yarısında, Ermənilərin Naxçıvan bölgəsinə kütləvi şəkildə köçürülməsindən sonra salınmışdır.

Başqa bir məqama da diqqət yetirmək lazımdır ki, Sovet dövründə xristian abidələrindən daha çox islam dini abidələri dağıntılara məruz qalmışdır. O dövrdə Ermənilər sovet rəhbərliyində mühüm vəzifələri tuturdular. Məhz sovet dövləti sayəsində Ermənilər Azərbaycanın tarixî ərazilərində Ermənistan Respublikası yaratdılar və 70 il ərzində buradakı islam abidələrini sistemli şəkildə məhv etməklə məşğul olmuşlar. Hazırda Ermənistan adlandırılan ərazidə azərbaycanlılara məxsus yüzlərlə məsciddən və məzarlıqlardan əsər-əlamət belə qalmamışdır.

Son iki yüz ildə Ermənilər Cənubi Qafqazın azərbaycanlılara məxsus abidələrinin məqsədyönlü şəkildə məhv edilməsi ilə məşğul olmuşlar. Bu məsələ ilə əlaqədar bəzi faktlara nəzər salmaq kifayətdir. 1914-cü ildə Tiflis-Kutaisi quberniya məclisi müsəlmanlara məxsus qəbiristanlığın Ermənilər tərəfindən dağıdılmasının qarşısını almaq xahişi ilə qubernatora müraciət etmişdir. İndiki Ermənistanın Mehri rayonunun Nüvədi kəndindəki qəbiristanlıq, Sisyan rayonundakı XV-XVIII əsrlərə aid Urud (indiki Oront) kəndindəki qəbiristanlıq, Şəki kəndindəki (Zəngəzur) XVI əsrə aid qəbiristanlıq, Mehri rayonundakı XVI əsrə aid Baba Hacı piri türbəsi, Ələyəz kəndindəki XVI əsrə aid Əxi zaviyəsi və yüzlərlə tarixî-memarlıq abidələri son illər ərzində Ermənilər tərəfindən yer üzündən silinmiş abidələrdəndir.

Zəngəzurun Urud (Oront) kəndində 1961 -ci ildə M.S.Nemət tərəfindən orta əsr qəbiristanlığında çox maraqlı abidələr aşkarlanmışdı. Bunlar sənduqə və qoç heykəlli məzar

daşları idi. Onların ikisinin üzərində «min evladi avğvan» yəni «alban nəslindən» sözləri həkk olunmuşdu yəni. Bu abidələrin üzərində qədim türk tayfalarına məxsus tamqalar, onqonlar (tanrılar) var idi. İndiyə kimi elmi ədəbiyyatda belə bir fıkir hökm sürürdü ki, xristian olan alban tayfaları islam gəldikdə gürcüləşdilər və erməniləşdilər. Urud abidələri albanların hələ islamdan qabaq türkləşməsi və azərbaycanlılaşması prosesini göstərir. Bu nadir tapıntı erməni tarixşünaslığında artıq formalaşan türk elementinin Qafqaza gəlmə oldugu konsepsiyasını alt-üst edirdi və azərbaycanlıların Qafqazın avtoxton əhalisi olduğunu sübuta yetirirdi. Buna cavab olaraq Ermənilər bu orta əsr nekropolunu məhv etdilər və onun ardınca 1988-ci ildə bütün azəpbaycanlıları bu ərazilərdən didərgin saldılar. Dağıda bilmədiklərini erməniləşdirdilər.

Zəngəzurun Cəfərabad (Arqavanq) kəndində Qara-qoyunlu dövrünə aid bir türbə var. Türbənin üzərində 22 metrlik kitabə var. Yazıda deyilir ki türbə h.816-cı ildə (= 1413) tikilib. Yazıda qeyd olunanlar Pir Hüseyn və onun atası Əmir Səəd Çuxur-Səəd vilayətinin əmirləri olub və Səədli oğuz türk tayfasına məxsus olublar.

Ermənilər türbənin bünövrəsində qazıntı apararaq belə bir nəticəyə gəlirlər ki, türbə erməni ustaları tərəfindən inşa olunub və erməni maddi-mədəniyyət abidəsidir. Ermənilər Qara-qoyunlu dövlətini İran dövləti, qara-qoyunlu əmirlərini Türkmən (müasir Türkmənlər nəzərdə tutulur) adlandırırlar.

Qara-qoyunlu əmirlərini müasir türkmənlərlə eyniləşdirmək qeyri elmi və cəfəng bir fikirdir. Qara-qoyunlu əmirləri XIII əsrdə Anadoluda yaşayan yarım köçəri türkəmən oğuz türk tayfa birləşmələrinə məxsus idilər. Onların mərkəzi vilayəti Van gölünün şimalında yerləşən Ardjiş şəhəri idi. Bundan əlavə memarlıq-konstruktiv quruluşuna görə bu abidə Naxçıvanda yerləşən Möminəxatun və Yusif bin Kəbir ən-Niyaz türbələri ilə eynidir və Əcəmi bin Əbu Bəkr memarlıq məktəbinin davamıdır.

Qeyd olunan yerdə bir neçə türbə binası və azərbaycanlılara məxsus böyük qəbiristanlıq olmuşdur. Hamısı dağıdılıb.

Zəngəzurun Səlim keçidində Elxanilər dövrünə aid bir abidə yerləşir - Səlim karvansarası. Qapının üstündə böyük bir yazılı daş var. Yazıda qeyd olunur ki karvansara h.729-cu ildə (=1328-29) Əbu Səid vaxtında tikilib.

Ermənilər karvansaranın içərisində erməni dilində bir yazı yerləşdiriblər. Yazıda deyilir ki bina h.781-ci ildə (=1332) Orbelyan nəslindən olan Çesar tərəfindən tikilib. Və iddia edirlər ki «tatarlar» (yəni azərbaycanlılar) ərəb yazısını sonradan qapının üzərində yerləşdirib abidəni mənimsəyiblər. Halbuki yazı qapının üzərinə bina inşa olunan zaman qoyulub və bu da aydın görünür.

Beləliklə, Ermənistan Respublikasının yerləşdiyi ərazidə az miqdarda qalan abidələr bu torpaqların Azərbaycanın tarixî ərazisi olduğunu bir daha sübut edir.

Məlumdur ki, Cənubi Qafqazın tarixî konsepsiyası hələ XX əsrin ortalarında İ.P.Petruşevski tərəfindən «XVI-XIX əsrin əwəllərində Azərbaycan və Ermənistan feodal münasibətləri tarixî oçerki»-ndə işlənilib. Bu konsepsiyaya əsasən guya erməni dövlətçiliyi Cənubi Qafqazda dərin köklərə malik idi.

Bu konsepsiyanın yanlış olduğu və heç bir elmi bazaya söykənmədiyi Azərbaycan alimləri tərəfindən sübut olunub. Arxeoloji abidələrin, antik və ilk orta əsrlər dövrlərinə aid yunan, roma, fars, erməni dilli yazılı mənbələrin, antropoloji materialların hərtərəfli araşdırılması nəticəsində sübut olunmuşdur ki, qədim dövrdə Cənubi Qafqazda heç bir erməni dövləti mövcud olmamışdır.

İ.P.Petruşevskinin və erməni "tarixçilərinin" əsərlərində Qərbi Azərbaycan torpaqlarında guya mövcud olmuş erməni dövlətinin «Qafqaz Ermənistanı və Ararat Respublikası» adlandırdıqları anlayışa heç bir mənbədə rast gəlinmir. Bu sənədlərdə Ermənistanın yerləşdiyi ərazi Çuxur-Səəd adlanır və Azərbaycan anlayışına daxildir. Sənədlərin təhlili Cənubi Qafqazın yeni tarixî konsepsiyasının işlənməsi zərurətini doğurur və Azərbaycan tarixinin Sovet rus və erməni tarixçiləri tərəfindən saxtalaşdırıldığını sübut edir. Böyük təəssüf hissi ilə qeyd etməliyik ki Azərbaycan tarixşünaslığında da - bu konsepsiya son illərə qədər hakim yer tuturdu.

Azərbaycanlıların bu regionda köklü xalq olduğunu toponimlər - yer adları bir daha sübut edir. Toponimlər konkret etnosun müəyyən coğrafi məkanda təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də Ermənilər əraziləri azərbaycanlılardan təmizlədikcə ilk növbədə yer adlarını dəyişdirirlər. Demək olar ki, bütün toponimlər erməniləşdirilib. Adını çəkdiyimiz Urud-Oront, Cəfərabad-Arqavanq, Zeyvə-Metsamor, Almalı-Xndzorek və s. adlandırılıb. Bu da azərbaycanlıların bu torpaqlarda tamamilə izlərinin itirilməsi məqsədini güdür.

Zəngəzurun Pir Davudan kəndində XIX əsrin sonunda 8-ci imam Rzanın nəvəsi Mir Davudun məqbərəsi var idi. Qaravəli kəndində 7-ci imam Museyi Kazımın oğlu Seyid Əhmədin məqbərəsi yerləşirdi. Hal-hazırda dağıdılıb.

İrəvan məscidlərinin İrəvan quberniyasının müxtəlif yerlərində vəqf əmlakları yerləşirdi. Bu əsasən torpaq sahələri, dükanlar idi. Sənədlərdən göründüyü kimi vəqf əmlaklarının sərhəd olduğu torpaqlar azərbaycanlılara məxsus idi. Sənədlərdə bir dənə də olsun erməni adına rast gəlinmir. Bu da öz növbəsində regionun əhalisinin böyük əksəriyyətinin azərbaycanlılar olduğunu sübut edir.

Bütün bu elmi dəlillər Ermənistan Respublikasının hal-hazırda yerləşdiyi ərazinin Azərbaycanın tarixî ərazisi olduğunu sübuta yetirir.

Qarabağda yerləşən abidələr də Ermənilər tərəfindən kütləvi surətdə dağıdılır və erməniləşdirilir. Ermənilər çalışırlar ki, bu yolla öz təcavüzkar siyasətlərinə haqq qazandırsınlar. Eyni zamanda dünya ictimaiyyətinin nəzərini başqa istiqamətə yönəltmək məqsədi ilə Naxçıvanda erməni qəbiristanlıqlarını dağıtmaq haqqında cəfəng məlumatlar yayırlar.

Dağlıq Qarabağ ərazisində yerləşən alban-xristian abidələri Ermənilər tərəfindən mənimsənilir və erməni mədəniyyət abidələri elan edilir. Bu haqda «əsərlər» çap olunur, rus, erməni, avropa dillərində. (Samvel Karapetyan Pamyatniki armyanskoy kulturı v zone Naqornoqo Karabaxa. 2000 q.; Şaqen Mkrtçyan. Sokrovişa Artsaxa. Erevan, 2000 q.)

Lakin qeyd olunan ərazidə, həm Dağlıq Qarabağ ərazisində, həm də ona sərhəd və Ermənilər tərəfindən hal-hazırda işğal olunmuş zonada, külli miqdarda xanəgahlar, türbələr, pirlər, monumental tikililər, orta əsr qəbiristanlıqları, məscidlər və s. müsəlman abidələri yaxın zamanlara qədər mövcud idi. 20 ildir ki, biz bu ərazilərə nəzarət edə bilmirik və bu abidələrin indiki vəziyyətindən xəbərimiz yoxdur.

Bu abidələrin üzərində olan yazılar memarların, alimlərin, xəttatların, nəqqaşların, sufi şeyxlərinin, Azərbaycanda memarlıq məktəblərinin banilərinin adlarını aşkarlayır. Həkərə çayının hövzəsində yerləşən bir sıra türbələr öz memarlıq-konstruktiv quruluşuna görə seçilir. Bunlardan Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən Yəhya ibn Məhəmməd türbəsi, Cəbrayıl rayonunun Şıxlar kəndində yerləşən Şıxbaba türbəsi (XIII-XIV əsr). Türbənin ətrafında orta əsr qəbiristanlığı yerləşir. Türbədən bir qədər aralı Şeyxzadə Şeyx əbd as-Salam b. Şeyx Qiyas əd-Dinin (h.759-cu il =1358) məzarı yerləşir. Türbənin ətrafında şeyxin davamçılarının məzarları üzərində baş daşları var. Yazıların mətninə, paleoqrafik xüsusiyyətlərinə, bədii tərtibatına görə Şıx Baba xanəgahının "Qədiriyyə" sufi cəmiyyətinə aid olduğu müəyyənləşdirilmiş və fəaliyyət dövrü XIII-XIV əsrlərə aid edilmişdir.

Bu ərazilərdə XIV-XIX əsrlərə aid sənduqə, başdaşı formalı, qoç, at heykəlli qəbir daşları ərəb-fars-azərbaycan dilli yazılarla və müxtəlif relyeflərlə Azərbaycan xalqının həyat, məişətinin müxtəlif tərəflərini əks etdirir, xalqın tarixinə, toponimikasına, xalq təbabətinə, etnoqenez məsələlərinə aydınlıq gətirir, Azərbaycanın orta əsr mədəni həyatına dair bir sıra məsələləri işıqlandırır.

Azərbaycanın Laçın rayonunun Malıbəyli kəndində aşkarlanmış üç at heykəlli qəbir daşında (XVI-XVII əsrlər) və Armazisxevidə yerləşən (XIV əsr) at heykəlli abidənin bud tərəfində həkk olunmuş Oğuz türk tayfalarına məxsus tamğalar üç üfüqi və bir şaquli xətt çox

maraqlıdır: Qarabağ abidələrindəki epiqrafik məlumatlardan və təsviri incəsənət motivlərindən Cənubi Qafqazda Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamış qədim türk tayfalarının məskunlaşmasını müəyyən etmək olur.

Laçın rayonunun Malıbəyli, Güləbird kəndlərində at heykəlli qəbir daşlarında günəş simvolunun və əlində quş tutmuş insanın təsvirləri var. Məlumdur ki, qədim türk tayfalarının tanrısı Humay quşu idi və bunun abidələrin üzərində təsvir olunması, güman ki, abidələri dağılmaqdan qoruma məqsədi daşıyırdı.

Epiqrafik abidələr Qarabağda gedən tikinti işlərindən, Elxanilər dövrü və Qarabağ xanlarının mədəni-maarif fəaliyyətindən xəbər verir.

Bu abidələr sırasına Fizuli rayonunun Babı kəndində yerləşən səkkiz güşəli Şeyx Babı Yaqub (XIII əsr) türbəsini aid etmək olar.

Bərdədə bir türbə və Axsadanbaba türbəsinin bünövrəsinin qalıqları var. Bu naxçıvanlı memar Əhməd b. Eyyub əl-Hafiz Naxçivaninin işidir.

Xocalı kəndində, köhnə qəbiristanlıqda yazının bir parçası aşkar olunub. Həmən yerdə, yolun qırağında iki başdaşı aşkarlanıb. Başdaşıların yuxarı hissəsində heyvan təsvirləri var - dağ keçiləri və Qobustanda, Abşeronda olan qayaüstü təsvirləri xatırladan müxtəlif tamğalar həkk olunub.

Cəbrayıl rayonunda Diridağ yaylasında orta əsr qəbiristanlığı yerləşir. Orada dağılmış türbə binası var. Türbənin ətrafında müxtəlif bədii formaya malik qəbir daşları qalıbdır, onlardan ikisi qoç heykəllidir və Azərbaycanın digər dağətəyi rayonlarında mövcud olmuş abidələrin analoqiyasıdır.

Ağdamın rayon mərkəzində «İmarət» deyilən memarlıq kompleksində XVI əsrə aid orta əsr qəbiristanlıqlarından yığılmış sənduqə formalı qəbir daşları cəmlənmişdir.

Laçın rayonunda Ağoğlan məbədinə gedən yolun sağında XVI əsrin at heykəlli və sənduqə formalı qəbir daşları var idi.

Fizuli rayonunun Əhmədallar kəndində, orta əsr qəbiristanlığının yerində sənduqə formalı qəbir daşı qalmışdı (h.1024-cu il =1615). Qarğabazar kəndində «Şah Abbas» karvansarasından yuxarı, qayanın üstündə «Qiyas əd-Din» məscidi durur. Yerli əhali onu «Şah Abbas» məscidi adlandırırdı. Kənddə yerləşən bulağın üzərində üç sətirli ərəbdilli yazı var. Yazıda deyilir ki, bulağı 1305-ci ildə Gəncəli Əmir Qarğabazarlının oğlu tikdirib.

Qarabağ xanı Pənah xanın mərmər başdaşısı Ağdamda yerləşən türbəsindən Azərbaycan Tarix muzeyinə köçürülüb.

Laçın rayonunun Cicimli kəndində 1790-1791-ci ildə çaylaq daşından düzbucaqlı planda tikilmiş məscid binası mövcuddur.

Şuşa şəhərində memar Kərbəlayı Səfi xan Qarabağlı tərəfindən inşa edilmiş iki məscid və iki mədrəsə binası var. Bu haqda məlumatı məscidin üzərindəki kitabə verir. Memarın adına Fizuli rayonunun mərkəzində yerləşən məscidin, Bərdə şəhərində, Ağdamda olan məscidlərin, Şuşa şəhərinin bir sıra məhəllə məscidlərinin üzərində də rast gəlmək olar. Bütün bu abidələr XIX əsrin ikinci yarısına aiddir.

Erməni vandalizminin törətdiyi dağıntıların siyahısını artırmaq da mümkündür. Lakin çox təəssüf ki, Ermənilərin xalqımıza, onun tarixî keçmişinə qarşı törətdikləri vəhşilikləri dünya ictimaiyyətinə çatdırmaq üçün geniş imkanlara malik deyilik.

Ermənistan dövlətinin Azərbaycanın tarixî ərazilərində yerləşdiyi və Ermənilərin son 200 ildə Azərbaycan xalqına qarşı mənəvi qenosidi haqqında dünya ictimaiyyətinə geniş məlumat verilməlidir.

Nə qədər ki Azərbaycan torpaqları işğal altındadır bu mənəvi qenosid davam edəcək.

Orta əsr memarlığının ən möhtəşəm abidələrindən biri də Bakı buxtasında yerləşən və tarixî ədəbiyyatda “Səbayıl”, “Bayıl daşları”, “Yeraltı şəhər”, “Karvansara”, “Xanəgah”, “Gömrükxana”, “Müdafiə qalası”, “Şəhri səba”, “Atəşpərəstlik məbədi” adlandırılan Qəsr olub. 1306-cı ildə Bakıda baş vermiş güclü zəlzələ zamanı tikinti dağılmış və bir neçə əsr suyun altında qalmışdır. XVIII əsrin əvvəllərində Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi nəticəsində abidənin qalıqları üzə çıxmışdır. Qəsrin möhtəşəmliyini onun üzərində yerləşən yaxın Şərqdə analoqu olmayan üzərində insan simaları, heyvan təsvirləri olan monumental inşaat lapidar sənədləri – yazılı daşlar bir daha təsdiqləyir.

Qəsrin inşasında Abşeronun əhəng daşından istifadə olunmuşdur. Uzunluğu 40 m, eni 180 m olan bu tikinti aralarındakı məsafə 16 m-dən 28 m-ə kimi olan 15 yarımdairə bürclərlə biri-birinə bağlanmışdır. Onlardan iki cənub və bir şimal-qərb bürcləri monolit olub, digərləri kiçik kamera vasitəsi ilə biri-birinə birləşdirilmişdir. Üç bürcün qapısının tikilinin həyətinə açılması onların inzibati otaqlar kimi istifadə olunmasından xəbər verir.

Əbd ər-Rəşid əl-Bakuinin məlumatına görə 1403-cü ildə şəhərin iki möhkəm qalası olubmuş. Onlardan birisi, böyüyü dəniz kənarında yerləşir və dənizin suları onun divarlarını yuyur, bu qəsri tatarlar da ala bilmədi. Digər qala bundan yuxarıda yerləşir. Onun yuxarı hissəsi mərmilərlə dağıdılıb.

XIV əsrin digər müəllifi üzərində müxtəlif fiqur təsvirləri olan qala divarları ilə əhatə olunmuş Gülüstan qalası ilə yanaşı Bakıda batmış Nouşəhər haqqında da məlumat verir.

1939-cu ildən 1969-cu ilə kimi abidədə bir neçə dəfə arxeoloji qazıntı işləri aparılmış Y. Paxomov, İ.Cəfərzadə və Ö.İsmizadənin rəhbərliyi ilə bu müddət ərzində 699 ədəd yazılı daş fraqmentləri əldə edilmişdir.

Dərin oyma üsulu ilə bəzədilmiş Bayıl daşlarının üzərində real səpkidə işlənmiş pələng, dəvə, at, öküz, quş və insan simaları təsvirlərini qeyd etmək lazımdır. Daşlarda heyvan təsvirləri xüsusi maraq doğurur. Bu daşlarda biz elə oymalara rast gəlirik ki, onlar öz bədii xüsusiyyətinə görə heç də dövrün təsviri sənət nümunələrindən geri qalmır. Maraq doğuran təsvirlərdən ilk növbədə dik vəziyyətdə dayanaraq elə bil kişnəyən at başı təsvirini aid etmək olar. Çox həyati və ekspressiv səpkidə oyulmuş bu fiqur onu yaradan sənətkarın dərin müşahidəçilik qabiliyyətinə malik olduğunu göstərir. Təsvirlərdə atların hərəkətləri, yüyənlərinin dartılmış bir vəziyyətdə verilməsi, döş tərəfdəki qalxanın rəsmi və s. amillər göstərir ki, onların üstündə suvarilər də varmış.

Bu pannoların həcmcə böyüklüyü və məzmunu onların vaxtilə qalanın ən mərkəz hissəsində olduğunu göstərir. Çox güman ki, onlar qalanın girişi üzərində yerləşmişdir. Deməli friz xarakteri daşıyan "Bayıl daşları" arasında vaxtilə süjetli böyük pannolar da varmış. (Rasim Əfəndi. Daşlar danışır.Bakı, 1980, səh. 14-15)

Bu təsvirlər dekorativliyi ilə yanaşı eyni zamanda böyük məna daşıyır və yazının məzmununu zənginləşdirir.

Xəzər dənizinin suları qəsri hər tərəfdən əhatə edirdi. Divar qalıqlarında daş oymalar var ki onlar da sahilə yan alan gəmilər üçün nəzərdə tutulmuşdur və löv bər funksiyasını daşıyırdı. Belə qənaətə gəlmək olar ki Bayıl qəsri möhkəm, alınmaz qala kimi şəhəri dəniz tərəfdən müdafiə edir, eyni zamanda gömrük funksiyasını da daşıyırdı.

Hal-hazırda bu daş lövhələr Şirvanşahlar Sarayı kompleksi qoruq-muzeyinin həyətində açıq səma altında ekspozisiyada nümayiş olunur.

Yazılı daşın 5-nin üzərində tarix var – h.630 il = 1232/33 il və h. 632 il =1234/35 il. Bu tarix abidənin Şirvanşah III Fəribürzün (1225-1243/44 il) hakimiyyəti dövründə inşa olunduğu haqqında fikir söyləməyə imkan verir. Yazılı daşlarda son Şirvanşahların adına təsadüf olunmur. Deməli 1306-cı il zəlzələsindən sonra həqiqətən də qalada həyat dayanıb. Bir daşda təsvir olunmuş insan simasının üzərində "Fəribürz" kəlməsinin yazılması bu simanın Şirvanşaha məxsus olduğunu güman etmək olar.

Yazılı daşlar ölçülərinə, yazıların xəttinə və daşın rənginə görə fərqlənir və burada bir neçə yazının olduğu güman olunur. Bir neçə daşın üzərində Şirvanşahların adlarına rast gəlinir.

Yazılardakı məlumata əsasən memar Əbd əl-Məcid b. Məsudun və usta Zeyn əd-Din b. Əbu Rəşid Şirvaninin adları müəyyənləşdirilmişdir. Memarın adı Mərdəkan girdə qalasının üzərində də var.

Bayıl daşları Bakı məktəbinə aid olan bədii daş yonma sənətinin unikal, təkrarolunmaz sənət əsərləri kimi Azərbaycanda orta əsrlərdə nəqqaşlığın, kalliqrafiyanın yüksək inkişaf səviyyəsindən xəbər verir.

**İstifadə Olunan Edəbiyyat:**

А.А.Али-заде. Социально-экономическая история Азербайджана. XIII-XIV вв. Б., 1956.

Bakixanov A. Gülüstani İrəm, B., 1951.

Бунятов З.М. Ширван в XII – первой половине XIII вв. Изв. АН Аз.ССР. Серия истории, философии и права. 1976, №2.

Vaqif Piriyev. Azərbaycan XIII-XIV əsrlərdə. B., 2003.

Кулиева В. А. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в XIX начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений. Баку, 2003.

Кулиева В. А. Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX начале XX вв. Баку, «Элм», 1999.

М. С. Неймат, В.А.Кулиева. Объект армянского террора – памятники материальной культуры азербайджанского народа. Баку, 2007.

Минорский В.Ф. История Ширвана и Дербенда. X-XI вв. М., 1963.

Nemətova Məşədixanım. Epiqrafik abidələr və onların Azərbaycanın sosial-iqtisadi tarixinin öyrənilməsində əhəmiyyəti (XIV-XIX əsrlər). Dokt. diss. B., 1968, AMEA TİEA, inv. №6639 (2).

Неймат М. С. КЭПА, т.III, Б., 2001.

Nemətova M. X. Şuşa şəhərlərindəki Came məscidinin kitabələri. Az.SSR EA xəbərləri, ictimai elmlər seriyası, 1961, №1.

Нейматова М. С. Мемориальные памятники Азербайджана (XII-XIX вв.). Б., 1981.

Meşedi Hanım Nimet. Avrupanın Qapısı olan Anadolunun Çin ilə birleşdiren İpek yolunun Araz boyu Azerbaycandan keçen hissesinde olmuş xanegah, karvansaray, körpüler. Erzurum «Çoban Dede Körpüsü» konfransı, 1996.

Папазян А .Д. Персидские документы Матенадарана. Указы (XIV-XVI вв.). Ереван, 1956, вып.I, ч.I.

Папазян А. Д. Персидские купчии Матенадарана. Ереван, 1968, т.II, вып.I.

Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – нач. XIX вв. Л., 1949.

Петрушевский И. П. Государства Азербайджана в XVI-XVII вв. Azərbaycanın tarixinə aid məqalələr məcmuəsi.

Рахмани А. «Тарих-и алам арай-и Аббаси», как источник по истории Азербайджана. Б., 1960.

Величко В. Л. Кавказ. Русское дело и межплеменные вопросы. Баку, 1990, с. 58, 59.

Шавров Н. И. Новая угроза русскому делу в Закавказье. Предстоящая распродажа Мугани инородцам. Изв. АН Аз.ССР. Серия истории, философии и права. 1988, №3, с. 55.

Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области. Изв. АН Аз.ССР. Серия истории, философии и права. 1988, №3, с. 54.

Щепотьев А. Доклад о спорных кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки. Изв. АН Аз.ССР. Серия истории, философии и права. 1990, №2, с. 47.